**28.05.2022: xəbər**

**Literary-musical jubilee event dedicated to the memory of prominent pedagogue Naila khanum Isayeva**

On May 27, 2022, the Marble Hall of Khazar University hosted a literary and musical event dedicated to the 75th birthday of Naila khanum Isayeva, the prominent educator, educational organizer, founder and head of “Dunya” School.
The event, organized by ”Dunya” School, was attended by the administrative and staff members of “Dunya” School and Khazar University, as well as prominent cultural figures and other guests.
The musical part of the event was conducted by the Khazar University Chamber Orchestra under the artistic direction of Zulfiya Sadigova, Honored Teacher and Honored Pianist, Head of the University's Music and Art Department.
The event began with the performance of Hamlet Isakhnli's poems performed by the presenter - Azerbaijani theater and film actor, director, art reader, laureate of "ARRI", "Golden Saffron", "Vagif Samedoglu" awards Kamran M. Yunis.
A documentary film and videos about Naila khanum Isayeva prepared by” Dunya” School Multimedia Center were demonstrated. The film depicts the establishment and management of “ Dunya” School by the prominent educator with impressive scenes.
Then the students of "Dunya" school sang the school anthem and song, showed their dancing skills.
Speaking at the event, People's Artist Khuraman Gasimova shared her memories of Naila khanum. People's Artists Gulyanag Mammadova, Ilgar Muradov, Khazar University faculty member Mahsati Jabbarova performed songs by Naila khanum Isayeva, Javanshir Guliyev, and other composers.
The event ended in a good mood.

**Görkəmli pedaqoq Nailə xanım İsayevanın xatirəsinə həsr olunmuş ədəbi-musiqili yubiley tədbiri**

2022-ci il mayın 27-də Xəzər Universitetinin Mərmər salonunda görkəmli pedaqoq, təhsil təşkilatçısı, “Dünya” məktəbinin qurucusu və rəhbəri olmuş Nailə xanım İsayevanın anadan olmasının 75 illiyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirildi.

“Dünya” məktəbinin təşkilaçılığı ilə keçirilən tədbirdə “Dünya” məktəbinin və Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, ölkənin görkəmli mədəniyyət xadimləri və digər qonaqlar iştirak edirdilər.

Tədbirin musiqi hissəsini universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi ilə Xəzər Universitetinin Kamera orkestri idarə edirdi.

Tədbir aparıcı - Azərbaycan teatr və kino aktyoru, rejissor, bədii qiraətçi, "ARRI", "Altın Şafran", "Vaqif Səmədoğlu" mükafatları laureatı Kamran M. Yunisin ifasında Hamlet İsaxanlının şeirlərinin səslənməsi ilə başlandı.

“Dünya” məktəbi Multimedia Mərkəzinin Nailə xanım İsayeva haqqında hazırladığı sənədli film və süjetlər nümayiş etdirildi. Filmdə görkəmli maarif xadiminin “Dünya” məktəbini qurması, ona rəhbərlik etməsi təsirli səhnələrlə dolğun əks olunmuşdu.

Sonra “Dünya” məktəbinin şagirdləri məktəbin himnini və mahnı ifa etdilər, rəqs məharətlərini göstərdilər.

Xalq artisti Xuraman Qasımova tədbirdə çıxış edərək, Nailə xanım haqqında xatirələrini bölüşdü.

Xalq artistləri Gülyanaq Məmmədova, İlqar Muradov, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova Nailə xanım İsayeva, Cavanşir Quliyev və digər bəstəkarların mahnılarını ifa etdilər.

Tədbir xoş əhval-ruhiyyə ilə başa çatdı.


75




Nailə xanım
MƏDƏNİYYƏT MƏRKƏZİ
Naile khanum
CULTURAL CENTRE


Səni sevdim
yerə həsrət
yağış kimi,
Səni sevdim
gözəlliyə






Nailəxanım






Khazar
University


Khazar
University




75
Nailəxanım İsayeva


çox sevirdim..."
75